"Türkün yenilməz ruhu, əzmkarlığı Türkiyə dövlətçiliyinin əbədi etibarlı təminatçısıdır"

Tahir Xudiyev: "Qardaş ölkədə özümüzü doğma evimizdəki kimi hiss edirdik"

(Əvvəli səh. 3-də)

Əlillər bu klubdan pul ödəmədən istifadə edəcəklər. Bunun sayəsində artıq əlillər də dünyada baş verən hadisələrdən xəbərdar olur və hər bir normal insan kimi heç bir maneə olmadan məlumatlar əldə edəcəklər. Həmçinin bu mərkəz sayəsində əlil insanlar həm özlərinə inamları artacaq, həm də cəmiyyətdən kənarda qalmayacaqlarını anlayacaqlar. Bu isə öz növbəsində onların həyat sevgisini artıracaqdır. "Gözdən Əlillər -İnternet-kafe" adlanan bu mərkəz ən müasir avadanlıqla təmin edilmişdir. Burada mikrofonlu və qulaqcıqlı kompyuterlər, Braille əlifbasına uyğun klaviatura vardır. Klubda əlillər hətta öz ev tapşırıqlarını rahat şəkildə yerinə yetirə bilirlər, həm də universitetlərin hazırlıq kurslarından yararlanırlar. Klubda 30 ədəd LCD kompyuter, Braille əlifbası ilə hazırlanmış 408 kitab, 1460 ədəd kasset, 5 ədəd braille display və s. müasir cihazlar var.

Əlillər İdarəsinin tərkibində fəaliyyət göstərən qurumlardan biri Sosial Xidmətlər və Uşaqlara Yardım Qurumudur. Bizə bu qurumun fəaliyyəti haqqında Baş müdirin köməkçiləri cənab İmambey Ertem və Dr. Özcan Kars ətraflı məlumat verdilər.

Mən Türkiyədə olarkən müşahidə etdiyim bir məqama da məxsusi toxunmaq istəyirəm. Bütün dövrlərdə olduğu kimi, bu gün də dünyada Türkiyə dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətinə zərbə vurmaq istəyən qüvvələr kifayət qədərdir. Biz bundan televiziya, mətbuat və s. vasitələrlə müntəzəm məlumatlar alırıq. Lakin bir həyati gerçəklik var ki, Türk əxlaqı, Türk mənəviyyatı, Türk ruhu heç vaxt sarsılmayacaqdır. Türk oğlunun yenilməz iradəsi, qətiyyəti heç bir zaman müxtəlif qüvvələrin Türk dövlətçiliyini sarsıtmağa əsla imkan verməyəçəkdir. Doğrudur, buna yönəlik cəhdlər, çalışmalar ola bilər, lakin yuxarıda qeyd etdiyim kimi, Türk ruhu, Türk vətənpərvərliyi bu dövlətin əleyhinə, onun Konstitusion əsaslarına yönəlmiş bütün siyasi-hərbi təxribatların qarşısına keçilməz bir sədd çəkir. Yəni Türkiyədə dövlət çox güclüdür, qüvvətlidir, yenilməzdir. Bir sözlə, Türk xalqı böyük Mustafa Kamal Atatürkün " Azadlıq və istiqlaliyyət mənim xarakterimdədir. Mən yaşamaq üçün müstəqil bir millətin övladı olmalıyam" kəlamına bu gün də öz sədaqətini birmənalı şəkildə ortaya qoyur.

Haşiyəyə çıxaraq bir faktı xatırlamağı lazım bilirəm: təxminən 10 il bundan əvvəl mən Türliyə olarkən müstəqil televiziyaların birində belə bir süjeti izlədim ki, qardaş ölkədə boyu çox kiçik olduğuna görə hərbi xidmətdən azad edilmiş bir vətəndaş buna dözməmiş və özünü asmışdı. O, intihar etməzdən öncə ölüm səbəbinə aydınlıq gətirən bir kağız yazıb qoymuşdu. Həmin gənc

vətəndaş öz intiharının səbəbini özünün orduya buraxılmaması ilə izah etmişdi. Şübhəsiz ki, bu, onun vətəndaşlıq qeyrətindən irəli gəlirdi və bu, telekanallarda mütəmadi olaraq göstərilirdi. Bu da öz növbəsində Türkiyə vətəndaşlarının vətənpərvərlik ruhuna müsbət təsir göstərirdi. Ümumiyyətlə, bu ölkədə hərbi çağırış yaşına çatmış gənclərə rəsmi çağırış vərəqəsi göndərməyə ehtiyac qalmır. Çünki çağırış yaşı çatmış gənclər könüllü şəkildə orduya yollanır və bunu özlərinin kişilik borcu hesab edirlər.

- Tahir müəllim, bəs qardaş ölkədə başqa hansı qurumlarda oldunuz və kimlərlə görüşdünüz?

- Biz yuxarıda göstərdiklərimlə yanaşı, Türkiyə Böyük Millət Məclisində də olduq və müxtəlif şəxslərlə görüşdük. Böyük Millət Məclisində ilk görüşümüz İstanbuldan millət vəkili seçilmiş, Sağlamlıq, Ailə, Çalışma və Sosial İşlər Komissiyasının üzvü, hakim AKP-nin Mərkəzi Qərar və İdarə Heyətinin üzvü cənab Lokman Ayva ilə oldu. Eyni zamanda, cənab Lokman Ayva İstanbulda fəaliyyət göstərən bir əlil qurumuna rəhbərlik edir. İki gözdən əlil olan Lokman Ayva çox səmimi, sadə, təvazökar, nəcib və xeyirxah bir insandır. Lokman bəylə təmasda olmaq hər bir insan üçün çox xoşdur. O, bir qrup deputatın iştirakı ilə bizə ziyafət süfrəsi açdı.

Lokman bəylə keçirdiyimiz görüş zamanı mən Türkiyə Böyük Millət Məclisinin üzvləri qarşısında çıxış edərək, onlara rəhbərlik etdiyim qəzetin və sədri olduğum "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin gördüyü işlər barədə ətraflı məlumat verdim, həmçinin gələcək fəaliyyət planlarımızı açıqladım. Eyni zamanda, ABŞ-da olduğu kimi, Türkiyədə də əslən Qarabağdan olan bir azərbaycanlı kimi Azərbaycan həqiqətləri, xüsusilə də Dağlıq Qarabağın ermənilər tərəfindən işğal edilməsini, bu işğal nəticəsində 1 milyondan çox soydaşımızın öz tarixi ata-baba yurdlarından didərgin düşməsini və hazırda çox ağır, çətin vəziyyətdə yaşamalarını bir daha türkiyəli parlamentarilərin diqqətinə çatdırdım. Həmçinin çıxışım zamanı ölkənin birinci xanımı, millət vəkili Mehriban Əliyevanın əlil insanlara göstərdiyi qayğı və diqqəti xüsusi qeyd etdim. Lokman bəy isə bizə Azərbaycan Prezidenti cənab İlham Əliyevin bir müddət öncə Türkiyəyə səfəri zamanı Böyük Millət Məclisində etdiyi maraqlı və məzmunlu çıxışını xatırlatdı.

Qeyd etdiklərimdən savayı, biz Türkiyənin Milli Egitim Bakanlığının Özəl Egitim və Danışma Xidmətləri Genel Müdirliyində də olduq. Genel müdirin köməkçisi Yüksel Sezgin bizi qardaş ölkənin özəl təhsil sisteminin xüsusiyyətləri barədə yetərincə məlumatlandırdı.

Yeri gəlmişkən, bizim redaksiyanın əvvəlki səfir hörmətli cənab Hüseyn Avni Karslıoğlu ilə də yaxın və səmimi dostluq münasibəti olmuşdur. Ankarada olarkən bir xoş təsadüf nəticəsində biz cənab Hüseyn Avni Karslıoğlu ilə də görüşdük və bu görüş də bizdə böyük sevinc hissi yaratdı.

Qardaş Türkiyəyə qısa, lakin unudulmaz səfərimlə bağlı müsahibənin yekununda isə səfər zamanı bizə hərtərəfli qayğı və diqqət göstərdikərinə görə TİKA-nın Ankara Nümayəndəlinin əməkdaşı Fazil bəyə, Əlillər İdarəsinin Xarici Əlaqələr İdarəsinin müdiri Dr.Sormet Başarana, uzman yardımçıları Serhan Kolata, Emre Hotalaka öz dərin təşəkkürümü bildirir, onlara möhkəm cansağlığı və işlərində yeni-yeni uğurlar arzulayıram.

Qələmə aldılar:
Məlahət İsfəndiyarqızı,
Mansur İbrahimov

Qazaxıstanda əlillərin hüquqları bütün sahələrdə qorunur

Dünyanın bütün ölkələrində əlillərin qayğı və diqqətə daha çox ehtiyac duyması hamımıza yaxşı məlumdur. Bu baxımdan öz milli müstəqilliklərinə qovuşmuş keçmiş sovet respublikaları kimi, Qazaxıstan da istisna deyil. Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Serik Primbetovun əməkdaşımıza verdiyi məlumata görə, təmsil etdiyi ölkədə 2005-ci il aprelin 13-də qəbul olunmuş "Əlillərin sosial müdafiəsi haqqında" Qanun əlillərin sosial müdafiəsi sahəsində ictimai münasibətləri tənzimləməklə bərabər, həm də onların sosial müdafiəsinin hüquqi, iqtisadi və təşkilati prinsiplərini müəyyən edir. Qanun həm də əlillərin cəmiyyətə inteqrasiyası və onların həyat fəaliyyəti üçün bərabər imkanların yaradılmasını özündə ehtiva edir.

7 fəsildən və 40 maddədən ibarət olan həmin Qanunda Qazaxıstanda əlilliyin hüquqi təyinatı, onların sosial müdafiəsinin dövlət tərəfindən tənzimlənməsi, əlillərə xidmət edən dövlət təşkilatlarının vəzifə və səlahiyyətləri, əlillərin hüquq və sosial müdafiə məsələləri, işəgötürənlərin əlillərin sosial müdafiəsində iştirakı, əlillərin ictimai birlikləri, sözügedən Qanunun icrasına nəzarət və s. öz dolğun əksini tapmışdır. Eyni zamanda, adıçəkilən Qanunda əlillərin sosial-məişət şəraitinin yaxşılaşdırılması, onlara səhiyyə, təhsil və s. sahələrdə dövlət səviyyəsində kompleks xidmətlərin göstərilməsi qeyd edilir. Əlillərin fərdi reabilitasiya proqramlarının həyata keçirilməsi, onlara texniki yardım vasitələrinin və xüsusi hərəkət vasitələrinin verilməsi də bu Qanunun əsas müddəalarından biridir. Eləcə də əlillərə evdə və tibbi-sosial xidmət müəssisələrində qulluq göstərilməsi də Qanunda öz geniş əksini tapmış, onların mənzil hüquqları, həmçinin idman və mədəniyyət müəssisələrinə heç bir məhdudiyyət qoyulmadan buraxılmaları təsbit edilmişdir. Eyni zamanda, Qanun işləmək imkanı olan əlillərin əmək hüquqlarını da lazımınca qoruyur. Bir sözlə, Qazaxıstanda bütün kateqoriyadan olan əlillərin hüquqları dövlətin qəbul etdiyi qanunvericilik əsasında qorunur.

Gələn sayımızda isə Qazaxıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Serik Primbetovun qəzetimizə verdiyi geniş müsahibəsini oxuya bilərsiniz. Bizi izləyin.

Fuad Vaqifoğlu

"Son bir ildə Respublika Əlillərin Bərpa Mərkəzində böyük işlər görülüb"

Səadət Mahmudova: "Görülmüş işlərlə kifayətlənmək fikrində deyilik"

Əməkdaşımızın suallarını Respublika Əlillərin Bərpa Mərkəzinin baş həkimi Səadət Mahmudova cavablandırır

- Səadət xanım, bu vəzifəyə təyin edilənə qədər hansı vəzifələrdə çalışmısınız?

- Mən uzun illər səhiyyə sistemində çalışmışam. 13 il Nərimanov Rayon Səhiyyə Şöbəsinin müdiri işləmişəm. Tibb elmləri namizədiyəm. 2007- ci ildə Respublika Əlillərin Bərpa Mərkəzinə baş həkim təyin olunmuşam. Hazırda doktorluq dissertasiyası üzərində işləyirəm. Baxmayaraq ki, bundan əvvəl faktiki olaraq xəstələrlə təmasda olmamışam, lakin əlillərlə işləmək maraqlıdır. Əlillərdə minnətdarlıq hissi, insan xeyirxahlığını qiymətləndirmək hissi güclüdür. Eyni zamanda, onların özlərinin nəvazişə, qayğıya, yaxşı sözə daha çox ehtiyacları var. Qeyd edim ki, burada bir müddət öncə təmir işləri aparılıb. Aprelin 1-dən isə artıq xəstə qəbul etməyə başlamışıq. Ən yaxşı nəticə odur ki, qəbul etdiyimiz xəstələrin 99,5 faizi buranı yaxşı vəziyyətdə tərk edirlər. Müalicə sahəsində böyük dəyişikliklər etmişik. Əvvəllər burada diaqnostikada yalnız elektrokardioqramma işləyirmiş, rentgen aparatı yox idi və laboratoriya yalnız qanda ümumi analiz aparırdı. Biz burada biokimyəvi analizləri bərpa etdik. Agciyərlərin ventelyasiyasını yoxlanması üçün çox lazımlı olan bir aparat bu vaxta qədər fikir verməyiblər. Bir kənara atılan bu aparat, demək olar ki, işlək vəziyyətdə idi. Biz ondan istifadə etməyə başladıq. Artıq bir xəstədə bu aparat vasitəsilə vərəm xəstəliyini aşkar etmişik.

- Burada cərrahiyyə əməliyyatları aparılırmı?

- Biz nazirlik qarşısında məsələ qaldırmışıq. Bizim xəstələrimizin əksəriyyətinin xəstəliyi onurğa sütunundadır. Yəni həkim-travmotoloqa böyük ehtiyacımız var. Burada əməliyyat aparılması çoxlu maliyyə tələb edir. Hər halda, söz nazirliyindir. Gələn il bizə nazirlik tərəfindən çox böyük avadanlıqların verilməsi nəzərdə tutulub.

- Hazırda Əlillərin Bərpa Mərkəzi Səhiyyə Nazirliyinin, yoxsa Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeçiliyindədir?

- Ümumiyyətlə, Respublika Əlillərin Bərpa Mərkəzi və tibbi ekspertiza həmişə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tərkibində fəaliyyət göstərib, bu gün də həmin nazirliyə tabedirlər.

- Səhiyyə Nazirliyi ilə hansısa bir rəsmi qaydada əməkdaşlıq edirsinizmi?

- Rəsmi qaydada hər iki nazirliklə sıx əlaqədə fəaliyyət göstəririk. Axı hər iki nazirlik sağlamlıq məsələlərində bir-biri ilə əlaqəli fəaliyyət göstərir. Əlilliyə qədər xəstələr Səhiyyə Nazirliyi tərəfindən profilaktik müayinə olunursa, bizim mərkəz tərəfindən yalnız bərpa işləri aparılır.

- Göndərişlə gələn xəstələr necə, varmı?

- Respublika Əlillərin Bərpa Mərkəzinə ölkəmizin hər yerindən xəstələr daxil olur. Biz onları növbəlilik əsasında qəbul edirik.

- Bəs rayonlarda necə, bərpa mərkəzləri fəaliyyət göstərirmi?

- Bəli, bu işdə ölkənin birinci xanımı, millət vəkili Mehriban Əliyeva çox işlər görür. Bölgələrdə də mərkəzlər açılıb. Lakin xəstələrin əksəriyyəti müalicələrini bizim bərpa mərkəzində almaq istəyirlər. Görünür, bu da rayonların bərpa mərkəzlərində olan problemlərdən irəli gəlir.

- Mən bilirəm ki, rayonlarda müasir bərpa mərkəzləri fəaliyyət göstərir. Onlar lazımi təcrübənin öyrənilməsi üçün sizə müraciət edirlərmi? Onlar sizin tabeçiliyinizdədirmi?

- Bəli, müraciət edirlər. Onlar bizə tabe deyil, müstəqildirlər. Biz yalnız təcrübə mübadiləsi keçirik.

- Bərpa mərkəzində qidalanma necədir və yemək xərclərini hansı təşkilat ödəyir?

- Gündə üç dəfə yemək verilir. Əlillərin qidalanmasına xüsusi diqqət yetirilir. Bütün xərci isə nazirlik ödəyir.

- Əlillərin Bərpa Mərkəzi hansısa xarici ölkənin bərpa mərkəzi ilə təcrübə mübadiləsi keçirmi?

- Xeyr, ancaq çox istərdik ki, həkimlərimiz bizdən güclü olan bərpa mərkəzlərində təcrübə keçsinlər.

- Səadət xanım, mən bu yaxınlarda Amerika, Türkiyə və İranın reablitasiya mərkəzlərində oldum. Müqayisə apardıqda gördüm ki, bizim Respublika Əlillərin Bərpa Mərkəzində son bir il ərzində böyük müsbət dəyişikliklər baş verib. Bəs Siz özünüz çalışdığınız sahə ilə bağlı hansısa bir xarici ölkədə olmusunuzmu?

- Mən Səhiyyə Nazirliyi sistemində ofisi Vaşinqtonda yerləşən Amerika Beynəlxalq Səhiyyə Alyansı ilə işləmişəm. Yeddi il müddətində mən 5 dəfə Amerikada olmuşam. Orlandoda böyük bir konfransda iştirak etmişəm. Oliqon ştatı ilə Poslon şəhərində olmuşam. Bu ölkənin səhiyyə sistemində çox nailiyyətlər görmüşəm. Nəzərinizə çatdırım ki, bir çox amerikalılar deyirdi ki, Səadət xanım, bilmirik siz bizdən nə öyrəndiniz, ancaq biz sizdən çox şey öyrəndik. Bizə qiymət verənlərdən biri də onlar olmuşdur.

- Sizə dəvət gələndə çəkinmədinizmi ki, əlillərlə işləmək çox çətindir?

- Bilirsiniz, əvvəlcə tərəddüd edirdim ki, əlillərlə necə işləyəcəyəm? Binanın xarici görkəmi məni təəccübləndirdi. İdarə bərbad halda idi, ancaq resurs çox idi. Mən aprelin 1-də xəstə qəbuluna başlayanda çox böyük sarsıntı keçirdim. Təvazökarlıqdan uzaq çıxmasın, bütün bu işləri mən şəxsi təşəbbüsümlə həyata keçirmişəm. Kollektiv də mənə böyük köməklik göstərdi. Onlara bu dəstəyə görə təşəkkür edirəm. Mən fikirləşirdim ki, burada səliqə yaratmasam, xəstələr mənimlə hörmətsiz davranacaq. Nazirliyin köməkliyi olmasaydı, heç nə edə bilməzdik. Uzun illərdən bəri burada heç bir işçi kursa getməmişdi. Bir il ərzində 25-30 həkimi, 40-a yaxın isə tibb bacısını təcrübə mübadiləsinə göndərdim.

- Bura hansısa xarici ölkədən maddi yardım olurmu? Yəni texniki avadanlığı nəzərdə tuturam.

- Yalnız bizim nazirlik tərəfinfən böyük işlər görülür. Planlarımız çox böyükdür, dayanmaq fikrimiz yoxdur.

- Tibbi xidmət zamanı əlillər arasında hansısa fərq qoyulurmu?

- Fərq qoyulmur. Bizim məqsədimiz ancaq xəstənin tam sağalmasıdır. Ancaq Qarabağ və Çernobl əlillərinə dərmanlar pulsuz verilir.

- Səadət xanım, oxucularımıza başqa nə demək istərdiniz?

- Nazirlik tərəfindən buranın genişləndirilməsi nəzərdə tutulur. Çünki bura 50 çarpayılıq bir mərkəzdir. Bu da çox azdır. Baxmayaraq ki, artıq biz hər ay 100 xəstə qəbul edirik, amma büdcə eyni səviyyədə qalır. Məqsədimiz budur ki, respublikadakı bütün bərpa mərkəzləri xəstələrə maksimal xidmət göstərsinlər. Səhiyyə sistemində iş elə qurulmalıdır ki, əlill olan insanların sayı azalsın.

- Əlillərin bərpası ilə bağlı gələcəyi necə görürsünüz?

- Gələcək perspektivlərlə bağlı onu deyə bilərəm ki, əgər təşkilati məsələlər yüksək səviyyədə öz həllini tapsa, bizim xəstələrimizin xaricə gedib müalicə almalarına ehtiyac qalmaz. Çünki Azərbaycan həkimləri bilik səviyyəsinə görə heç də xarici həkimlərdən geri qalmırlar. Mən çox istərdim ki, bütün xəstələrin müayinə və müalicəsi respublikamızda aparılsın. Mən Əlillərin Bərpa Mərkəzinin gələcək perspektivini belə görmək istəyirəm. olun.

- Səadət xanım, maraqlı müsahibəyə görə təşəkkür edirəm.

Tahir Xudiyev

Bakıda Xoca Əhməd Yəsəvi Beynəlxalq Simpoziumu

Son illər türkdilli xalqların həyatımızın bütün sahələrində bir-biri ilə dostluq, əməkdaşlıq və qardaşlıq əlaqələrini gücləndirmələri gümünüzün reallıqlarından biridir. Mübaliğəsiz deyə bilərik ki, hazırda Türk xalqlarının siyasi, iqtisadi, sosial, hüquqi, elmi və mədəni əlaqələrinin intensivləşməsi prosesi özünü Sovetlər Birliyinin dağılmasından sonra müstəqillik əldə etmiş keçmiş Türk respublikalarının həyatında daha çox büruzə verir. Eyni zamanda, türkdilli xalqlar siyasi və iqtisadi əlaqələrlə yanaşı, mədəni əlaqələrin də genişlənməsinə böyük diqqət yetirirlər. Bu mədəni əlaqələrin genişlənməsində isə, şübhəsiz ki, türkdilli xalqların tanınmış elm və mədəniyyət xadimlərinin iştirakı ilə keçirilən beynəlxalq konfranslar, simpoziumlar və s. tədbirlər böyük rol oynayır. Bu baxımdan yaxın zamanlarda Bakıda Azərbaycan Respublikası Gəncliyə Yardım Fondu, "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyi, Mahmud Kaşqari adına Beynəlxalq Fond və Türkiyə Cümhuriyyəti Türk Əməkdaşlıq və İnkişaf İdarəsinin (TİKA) dəstəyi ilə Türk dünyasının böyük mütəfəkkir oğlu Xoca Əhməd Yəsəviyə həsr olunmuş iki günlük beynəlxalq simpoziumu xüsusi qeyd edə bilərik.

"Keçmişdən günümüzə Xoca Əhməd Yəsəvi" mövzusunda keçirilmiş beynəlxalq simpoziumun iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Fəxri Xiyabandakı məzarını, Şəhidlər Xiyabanını və Türk Şəhidlərinin abidəsini ziyarət etmişlər. Sonra konfransın rəsmi hissəsi "Avropa" otelində davam etmişdir.

Konfransı giriş sözü ilə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar açmışdır. Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Hulusi Kılıç çıxış edərək Bakıda belə bir simpoziumun keçirilməsini yüksək qiymətləndirmişdir. Sonra Namık Kemal Zeybek, Prof. Dr. N.K.Yılmaz, Prof. Dr. Mustafa Kara, Ömer Kayır, Dr. Mehmet Pıhtım, professor Nizami Cəfərov, professor Buludxan Xəlilov, tanınmış şair-publisist Məmməd Aslan məruzə ilə çıxış etmişlər. Onlar Xoca Əhməd Yəsəvini böyük Türk filosofu Yunus Əmrə ilə bərabər, sufi ədəbiyyatının ilk yaradıcılarından biri kimi səciyyələndirmişlər.

Simpoziumda həmçinin Prezident Aparatının məsul işçiləri, qəzetimizin təsisçisi və baş redaktoru, "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin sədri Tahir Xudiyev, "Dirçəliş" Gənclərin Sosial-Psixoloji Peabilitasiya Mərkəzinin rəhbəri İslam Baxşəliyev, "Müstəqil Respublika" qəzetinin təsisçisi və baş redaktoru Gülxas Səmədli də iştirak etmişlər.

Sevinc Tahirqızı